AZƏRBAYCAN XƏBƏRLƏRİ

Kənd təsərrüfatında 100 faizlik vergi güzəşti ləğv olunur

Noyabr 06, 2026



'Oliqarx-məmurlar kəndlinin torpağını ələ keçirmək istəyir' - Yeni islahat (Arxiv videosu)

Yeni layihəyə əsasən, aqrar sektorda uzun illərdir qüvvədə olan 100 faizlik tam vergi azadolması ləğv olunur və onu 2027-ci il yanvarın 1-dən 5 il müddətinə 90 faizlik güzəşt mexanizmi əvəz edir.

Noyabrın 6-da Dövlət Vergi Xidmətinin rəisi **Orxan Nəzərli** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında çıxış edib.

AZƏRTAC-ın məlumatına görə, o, Vergi Məcəlləsindəki dəyişikliklərlə bağlı bildirib ki, istehsalçıların qazandığı gəlir və ya mənfəətin cəmi 10 faizi ümumi qaydada vergiyə cəlb

ediləcək: **"Bundan başqa, sadələşdirilmiş vergi üzrə tam vergi azadolması müəyyən edilmiş şərtlər daxilində daha 5 il müddətinə saxlanılacaq. Kənd təsərrüfatı güzəştlərindən istifadə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) uçota alınma və əməliyyatların vergi hesabatlarında bəyan edilməsi ilə şərtləndiriləcək".**

Son illər Azərbaycanda dövlət büdcəsinin vergi daxilolmaları durmadan artır. Layihə ilə bağlı Maliyyə Nazirliyinin ilkin açıqlamasında vurğulanırdı ki, 2027-ci ildə Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar dövlət büdcəsi gəlirlərinin 47 faizini və ya 18 milyard 430 milyon manat təşkil edəcək: "Bu da cari ilin təsdiq olunmuş göstəricisindən 1 milyard 520 milyon manat (9 faiz), 2025-ci ilin icra göstəricisindən isə 2 milyard 74.8 milyon manat (12.7 faiz) çoxdur. Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların 80.6 faizi (14 milyard 850 milyon manat) qeyri-neft-qaz sektorunun, 19.4 faizi (3 milyard 580 milyon manat) isə neft-qaz sektorunun payına düşür".

Məsələ burasındadır ki, bu ildən Azərbaycanda özəl sektorda 7 illik güzəşt müddəti başa çatıb və bu sahədə çalışanların əmək haqları yenidən gəlir vergisinə cəlb olunub. Üstəlik, bu vergi dərəcəsi 2027–2028-ci illərdə mərhələli şəkildə artacaq.

Eləcə də, bəzi istiqamətlər üzrə vergi güzəştləri müəyyən səviyyədə ya ləğv edilir, ya da tamamilə yeni formada tətbiq olunur.

Müstəqil iqtisadçılar isə bu addımı düzgün hesab etmirlər. Onlar bildirirlər ki, bu il neft kəskin bahalaşsa da, ümumi daxili məhsul (ÜDM) cəmi 1.5 faiz artıb. İqtisadçıların fikrincə, bu, real iqtisadi inkişaf demək deyil və əgər vergi siyasəti sərtləşdirilməkdə davam edərsə, bunun biznesə mənfi təsirləri qaçılmaz olacaq.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur